Sizdən biri qarnında bir şey hiss edib, ondan bir şey çıxıb və ya çıxmadığını şübhə edərsə, səs eşitmədikcə yaxud iy duymadıqca məsciddən çıxmasın

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: «Sizdən biri qarnında bir şey hiss edib, ondan bir şey çıxıb və ya çıxmadığını şübhə edərsə, səs eşitmədikcə yaxud iy duymadıqca məsciddən çıxmasın».
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz qılan bir kimsənin qarnında bir şey hiss edib, ondan bir şey çıxıb və ya çıxmadığına tərəddüd etdiyi bir durumda, yelin səsini eşidib ya da iyini hiss etmək kimi dəstəmazı pozan amilin varlığına əmin oluncaya qədər yenidən dəstəmaz almaq üçün namazdan çıxmamasını xəbər vermişdir. Çünki yəqin olan bir şey, şübhə ilə batil olmaz. Bu kimsənin dəstəmazlı olması yəqindir, dəstəmazının pozulması isə şübhəlidir.

https://sunnah.global/hadeeth/az/show/65083